İYUN-SENTYABR 2018

# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

## RÜBLÜK İCMAL

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ




## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar.
2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/c-dphaqqinda/rblkicml/**

## İCMAL:

DP MƏZUNLARININ UĞURLARI

YENİ TƏYİNATLAR

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

# TİBB TƏHSİLİ ALMIŞ MƏZUNUMUZUN UĞURLARI

İYUN-SENTYABR 2018



Cavid Cabbarzadə 2002-2008-ci illərdə Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisası üzrə baza ali tibb təhsili almışdır. Daha sonra o, 2009-2014-cü illər ərzində Dövlət Proqramı çərçivəsində Türkiyənin Hacettepe Universitetində "Qulaq, burun, boğaz xəstəlikləri və baş-boyun cərrahiyyəsi" ixtisası üzrə rezidentura təhsilini davam etmişdir. ABŞ və Avropada çap olunan bir çox elmi jurnallarda məqalələri dərc olunmuşdur.
ABŞ və Avropada keçirilən qulaq-burun-boğaz və üz plastik cərrahiyyəsi ilə bağlı konfranslarda məruzələri olmuşdur.

**Eyni zamanda, o, bir çox dərnəklərə üzvdür:**

-"European Academy of Facial Plastic Surgery"
-"European Academy of Otology and Neurotology"
-"Türk Rinoloji Derneği"
-"Yüz Plastik Cerrahi Derneği"
-"Kulak Burun Boğaz ve Baş Boyun Cerrahisi Derneği"
-"Sürekli Eğitim ve Bilimsel Araştırmalar Derneği"
-"Hacettepe Üniversitesi Mezunlar Derneği"

## Azərbaycanda ilk dəfə beynəlxalq rinoplastika günü keçirilmişdir.

31 avqust-1 sentyabr tarixlərində C.Cabbarzadənin təşəbbüsü və təşkilatçılığı ilə ölkəmizdə rinoplastika üzrə ilk beynəlxalq konfransı keçirilmişdir. Konfransda yerli rinoplastika cərrahları ilə yanaşı, digər ölkələrdən gəlmiş estetik burun cərrahları iştirak etmişlər. 2 gün davam edən tədbirdə əsasən rinoplastikanın müasir aspektləri və rinoplastikadakı yeniliklər müzakirə olundu. Tədbirdə ölkəmizin qabaqcıl rinoplastik cərrahları və 14 fərqli ölkədən cərrahlar iştirak etmişdir.

**Cavid Cabbarzadənin uğurları ilə bağlı daha ətraflı şəxsi internet səhifəsindən tanış ola bilərsiniz: http://www.cabbarzade.com**

## ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRİ

### Cochlear Implants International. 2014 Jul 1

Cabbarzade C., Sennaroglu L., Süslü N. CSF Gusher in cochlear implantation: the risk of missing CT evidence of a cochlear base defect in the presence of otherwise normal cochlear anatomy

### Journal of Craniofacial Surgery 2013 Sep

Ozer S., Cabbarzade C., Ogretmenoglu O. A New Transnasal Approach to Nasolabial Cyst: Endoscopic Excision of Nasolabial Cyst

### Head Neck 2013 Oct 29

Yılmaz T., Cabbarzade C., Süslü N., Bajin MD., Gunaydin RÖ., Özer S., Atay G. A Novel Endoscopic Treatment of Pharyngocele: Endoscopic Suture Pharyngoplasty

### Pathology. 2013 Oct

Ozer S., Kayahan B., Cabbarzade C., Bugdaycı M., Kosemehmetoglu K., Yücel OT. Thyroid-like papillary adenocarcinoma of the nasopharynx showing aberrant thyroglobulin expression

**Digər məqalələr barəsində ətraflı:http://cabbarzade.com/view.php?lang=az&menu=9**

# "DÖVLƏT PROQRAMI GƏNCLƏRƏ ELMİ-TƏDQİQATLAR APARMAQ ÜÇÜN AÇILAN BİR PƏNCƏRƏDİR.."

İYUN-SENTYABR 2018



Dövlət Proqramı çərçivəsində  Kanadanın Alberta Universitetində "Proqramlaşdırma mühəndisliyi və intellektual sistemlər" ixtisası üzrə magistratura təhsili almış Şahin Atakişiyev təhsil müddətində ixtisası üzrə apardığı elmi-tədqiqatın bir hissəsini Bakıda keçirilən " 7-ci Yumşaq (Qeyri-Səlis) Hesablamalar üzrə Dünya Konfransı"nda təqdim etmişdir. Hər dəfə  dünyanın fərqli ölkələrində təşkil olunan və Lütfi Zadənin elmi araşdırmalarına və qeyri-səlis məntiq nəzəriyyəsində son irəliləyişləri özündə əks etdirən konfransda bir çox ölkələrindən, o cümlədən Yaponiya, Kanada, ABŞ, Meksika, Avstriya, Bolqarıstan, Rumıniya, Macarıstan, Çexiya, İspaniya, Belçika, Norveç, Ukrayna, Rusiya, Slovakiya, Səudiyyə Ərəbistanı, Hindistan, İran, Almaniya, Polşa, İsrail və Latviya-dan olan alimlər 50-dən artıq elmi məqalə təqdim etmişlər. Şahin Atakişiyev  təqdim etdiyi "Yüksək ölçülü söz-vektor fəzasının qeyri-səlis klasterinq vasitəsilə analizi" (Analysis of Word Embeddings using Fuzzy Clustering) tədqiqat məqaləsinə görə proqram komitəsi tərəfindən seçilmiş və "Nailiyyət" sertifikatına layiq görülmüşdür. Qeyd edək ki, bu elmi məqalə sentyabr ayının sonunda məşhur nəşriyyat qurumu olan "Springer" tərəfindən nəşr olunacaqdır.

# YENİ TƏYİNATLAR

**RÜBLÜK İCMAL**

**"Yeni təyinat almış Dövlət Proqramı məzunlarımızı təbrik edir və onlara gələcək fəaliyyətlərində uğurlar arzu edirik.."**



## Xalid Əhədov

### Birinci vitse-prezidentin köməkçisi

2010-2011-ci illərdə Dövlət Proqramı çərçivəsində İspaniyanın "Instituto de Empresa" Biznes məktəbindən "Biznesin təşkili və idarə edilməsi" ixtisası üzrə magistratura təhsili almış Xalid Əhədov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi təyin edilmişdir. X.Əhədov bundan öncə uzun müddət bank sektorunda çalışmış, "Bank of Baku"nun İdarə Heyətinin sədr müavini, "Unibank"ın icraçı direktoru, "Bank Standard"ın baş direktoru, "Beynəlxalq Bank"ın İdarə Heyətinin sədri və Müşahidə Şurasının üzvü olaraq çalışmışdır.



## Emin Hüseynov

### Birinci vitse-prezidentin köməkçisi

2008-2009-cu illərdə Dövlət Proqramı çərçivəsində ABŞ-ın Harvard Universitetindən "Dövlət idarəçiliyi" ixtisası üzrə məzun olmuş Emin Hüseynov Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi təyin edilmişdir. Qeyd edək ki, E.Hüseynov bundan öncə AR-nın maliyyə nazirinin müavini, ADA Universitetində prorektor, AR Mərkəzi Bankında müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.



## Şəbnəm Məmmədova

### AR kənd təsərrüfatı nazirinin köməkçisi

2013-2015-ci illərdə Dövlət Proqramı çərçivəsində Niderland Krallığının Maastrixt Menecment Məktəbində "Executive MBA" proqramı üzrə təhsil almış Şəbnəm Məmmədova Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin köməkçisi təyin edilmişdir. O, bundan öncə AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində innovasiyalar sektorunun müdiri, AR Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır.




## Məmmədrəhim Nəcəfov

### AR Qida Təhlükəsizliyi Agentliyinin sədrin müşaviri

2013-2015-ci illərdə Dövlət Proqramı çərçivəsində Koreya Universitetində "Biznesin təşkili və idarə edilməsi" ixtisası üzrə bakalavriat təhsili almış Məmmədrəhim Nəcəfov Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyində sədrin müşaviri təyin olunmuşdur.



## Rəvan Səmədov

### AR-nın Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi/Hüquqi təminat şöbəsinin müdiri

2013-2016-cı illərdə Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Bristol Universitetində "Hüquqşünaslıq" ixtisası üzrə doktorantura təhsili almış Rəvan Səmədov Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində Hüquqi təminat şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur.

# DÖVLƏT PROQRAMI TƏQAÜDÇÜSÜ ELMİ FƏALİYYƏTDƏ

**"Azərbaycanda və eyni zamanda bütün dünyada yüksəkixtisaslı savadlı və müxtəlif sənaye məsələlərinin həllində birbaşa iştirak edə biləcək kimya mühəndislərinə böyük ehtiyac var."**



Dövlət Proqramı çərçivəsində Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Kimya" ixtisası üzrə doktorantura təhsili almış Fəxriyyə Məmmədova yeni tədris ilindən etibarən Azərbaycan-Fransa Universitetində (UFAZ) yeni müəllim-professor heyətinə cəlb olunmuşdur.
F.Məmmədova bakalavr təhsilini 2004-2009-cu illərdə Sankt-Peterburq Dövlət Universitetində "Kimya" ixtisası üzrə almışdır. Doktorantura təhsili aldığı müddətdə o, biologiya elmləri doktoru, professor Efremenko
Yelena Nikolayevanın rəhbərliyi ilə "Chorella Vulgaris mikroyosununun toplanmasına və onun biokatalitik transformasiyası prosesinə müxtəlif yanaşmalar"mövzusunda dissertasiya işini yerinə yetirmişdir.
O, 2015-ci ildə yenidən AMEA-nın Neft-Kimya Prosesləri İnstitutuna işə qayıdaraq böyük elmi işçi vəzifəsində çalışmışdır. Eyni zamanda o, Bakı Mühəndislik Universitetində akademik fəaliyyət göstərmişdir. Məhz uğurlarının davamı olaraq Fəxriyyə Məmmədova elm sahəsində Gənclər üçün Prezident mükafatına layiq görülmüşdür.
Onun eyni zamanda musiqi təhsili var və musiqi incəsənətinə də xüsusi diqqət ayırır.




# "TOP SCORER" MÜKAFATINA LAYİQ GÖRÜLƏN MƏZUNUMUZ

**Dövlət Proqramı çərçivəsində Koreya Universitetində "Kompüter elmləri və mühəndisliyi" ixtisası üzrə təhsil almış Rəşad Əliyev İT sahəsində əldə etdiyi nailiyyətlərə görə Koreya Respublikasının İnformasiya və Kommunikasiya Texnogiyalarının İnkişafı İnstitutu tərəfindən  mükafatlandırılmışdır.**

# NİDERLANDDA AZƏRBAYCAN MƏDƏNİYYƏT GECƏSİ KEÇİRİLMİŞDİR




İyun ayının 19-da Niderland Krallığının Delft Texnologiya Universitetində SOCAR-ın xarici təqaüd proqramının qalibi Sənan Süleymanlı və Xaricdə Təhsil üzrə Dövlət Proqramının məzunu Şamil Mustafayev tərəfindən Azərbaycan mədəniyyətinin təbliğatına aid təşkil olunmuş “Explore Azerbaijan” adlı tədbir keçirilmişdir. Tədbirdə, əsasən, TU Delftin 20 ölkədən 100-ə yaxın tələbəsi iştirak etmiş, onlara Azərbaycan mədəniyyəti, rəqsləri, musiqisi, tarixi və milli yeməkləri təqdim olunmuşdur.

“Explore Azerbaijan” tədbiri Azərbaycan haqqında təqdimat ilə başlamışdır. 30 dəqiqəlik qısa təqdimat tədbir iştirakçılarına ölkə haqqında ümumi məlumatla yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti, muğam və musiqi alətləri, milli rəqslər və mətbəximiz haqqında ətraflı məlumat verilmişdir. Təqdimat Azərbaycan haqqında hazırlanan video ilə sona çatdırılmışdır.

Tədbir axşam yeməyi ilə davam etmişdir. Axşam yeməyində qonaqlar ləziz Azərbaycan mətbəxinin təamlarından dadmışlar. Eyni zamanda, təşkil olunmuş sərgidə tələbələr “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi” stendi ilə tanış olmuş, milli musiqi alətləri haqqında ətraflı məlumat əldə etmiş və Azərbaycanın xalça mədəniyyəti haqqında öyrənmişlər.

Sərgi iştirakçıları milli rəqs geyimləri və musiqi alətləri ilə, eləcə də, Azərbaycan milli futbol komandasının köynəklərində şəkil çəkdirmişlər.

Daha sonra qonaqlara Azərbaycan musiqiləri təqdim olunmuşdur. Tar və qavalın müşayiətində “Ay işığında” mahnısı və muğam qonaqların zövqünü oxşamışdır.

Azərbaycan haqqında 15 suallıq “quiz”ə bütün xarici tələbələr qatılmış və 15 qalibə müxtəlif hədiyyələr verilmişdir. Tədbir lirik mahnılarla davam etmişdir.

Tədbir Müslim Maqomayevin “Azərbaycan” mahnısı ilə sona çatmışdır.

SOCAR-ın maliyyə dəstəyi ilə keçirilən tədbirə Azərbaycan Respublikasının Niderland Krallığındakı Səfirliyi və Niderland Krallığında fəaliyyət göstərən Azərbaycan-Türk Mədəniyyət Dərnəyi tam dəstək vermişdir. Tədbirin təşkilatçılığında Niderlandda təhsil alan azərbaycanlı tələbələr yaxından köməklik göstərmişdir.

Institution of MECHANICAL ENGINEERS

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Şeffield Universitetində "Nüvə texnologiyasında mexanika mühəndisliyi" ixtisası üzrə təhsil almış Eldar Rəhimov universitet tərəfindən ən yüksək akademik göstəriciyə görə mükafata layiq görülmüşdür.

THIS IS TO CERTIFY THAT

# ELDAR RAHIMOV

WAS AWARDED

# THE INSTITUTION BEST STUDENT

PROVIDED BY THE

# INSTITUTION OF MECHANICAL ENGINEERS

IN

## 2018

FOR MERITORIOUS PEFORMANCE ON THE

# MENG MECHANICAL ENGINEERING WITH NUCLEAR TECHNOLOGY COURSE

AT

# THE UNIVERSITY OF SHEFFIELD



Improving the world through engineering

# RÜBLÜK İCMAL

## "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"




*Hörmətli Dövlət Proqramı təqaüdçüləri,*

*Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*



***Gülminə Məlikzadə***

*(gulmina.melikzade@edu.gov.az)*



***Rəvan Süleymanov***

*(revan.suleymanov@edu.gov.az)*

**Dövlət Proqramı Məzunlar Şəbəkəsi/ State Program Alumni Network**

**Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu**

**Dövlət Proqramı Məzunlar Şəbəkəsi/ State Program Alumni Network**